# Avstraliya təcrübəsini ölkəmizə gətirəcək

## Nicat Hacıxanov: "Xaricdə təhsil arzusunun reallaşması təkcə ölkənin və universitetin seçilməsi ilə yekunlaşmır"

**O düşünür ki, xaricdə təhsil qazandığı və qazanacağı ən zəngin təcrübədir. Belə ki, dünyanın bütün ölkələrindən dostları var və onlarla ünsiyyət quraraq hər bir ölkə haqqında maraqlı faktlar əldə edir.**



Lakin Vətən onun üçün hər şeydən üstündür. Bu səbəbdən də qazandığı təcrübəni hansısa xarici ölkədə yox, ölkəmizdə tətbiq etməyin tərəfdarıdır. Müsahibimiz Avstraliya Milli Universitetində təhsil alan həmyerlimiz Nicat Hacıxanovdur.

### ƏVVƏLCƏ MÜSAHİBİMİZİ TANIYAQ

Nicat 1990-cı ildə Balakən rayonunun Hənifə kəndində anadan olub. Orta təhsilini kəndlərində yerləşən orta məktəbdə, daha sonra Balakən rayonu Humanitar və texniki təmayüllü liseydə alıb. 2007-2011-ci illərdə Azərbaycan Dövlət Aqrar Universitetinin ümumi iqtisadiyyat istiqaməti üzrə bakalavr təhsilini fərqlənmə diplomu ilə bitirib. 2012-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetində Xidmət sferasında mühasibat uçotu ixtisası üzrə magistratura təhsilinə başlayıb. 2013-cü ildən universitetin Maliyyə və təminat departamentində iqtisadçı, 2014-cü ildən aparıcı iqtisadçı vəzifələrində çalışıb. Eyni zamanda pedaqoji fəaliyyətlə də məşğul olub. Hazırda Avstraliya Milli Universitetində Mühasibat uçotu ixtisası üzrə magistratura pilləsində təhsil alır.



### "DOSTLARIM HƏYATIMI DƏYİŞDİ"

Müsahibimiz deyir ki, onun xaricdə təhsil almasında ətrafındakı dostlarının rolu böyükdür: "Onlarla söhbətləşdikdə hansısa məsələnin həllində müxtəlif yanaşmaların, ideal variantların irəli sürülməsinin şahidi oldum. Xaricdə təhsil alan dostlarımın düşüncələri mənə hər zaman maraqlı gəlirdi və qərara aldım ki, artıq mühasibat uçotu sahəsində biliklərimi dərinləşdirməyin vaxtı çatıb. Dostlarımla yanaşı, təhsil aldığım və işlədiyim dövrdə Azərbaycan Dövlət İqtisad Universiteti rəhbərliyi hər zaman mənim xaricdə təhsil almaq fikrimi dəstəkləyib. Dövlət Proqramı əsasında xaricdə təhsil almaq imkanının olması istəyimi daha da artırdı. Çünki xaricdə təhsil arzusunun reallaşması təkcə ölkənin və universitetin seçilməsi ilə yekunlaşmır. Bildiyimiz kimi, xarici universitetlərdə təhsil haqqının yüksək olması çox hallarda arzuları imkansız edir. Mən də Dövlət Proqramına müraciət etdim və xaricdə təhsil almaq arzumu reallaşdırdım".

Qeyd edək ki, Nicatın təhsil aldığı universitet Avstraliyanın paytaxtı Kanberrada yerləşir. Universitet Avstraliyada birinci yerdə, dünya reytinqində isə 19-cu yerdə qərarlaşıb: "Avstraliya Milli Universiteti elmi tədqiqat işlərinin aparılmasına və qabaqcıl texnologiyadan istifadə edilməsinə görə çox məşhurdur. Universiet məzunları və fakültə üzvləri içərisində 6 Nobel laureatı var".

Həmsöhbətimiz təhsil aldığı universitetdəki təhsil xüsusiyyətlərinin Azərbaycanda tətbiq olunmasını istəyir: "Universitetin həm bakalavr, həm də magistr pilləsində böyük və nüfuzlu sosial birliklər fəaliyyət göstərir. Həmin birliklər tərəfindən hər həftə müxtəlif tədbirlər, ictimai mühazirələr keçirilir. Bu, tələbələrə daha çox öz imkanlarını genişləndirməyə kömək edir. Azərbaycan universitetlərində bu təcrübə mütləq tətbiq olunmalıdır. Digər tərəfdən, təhsil aldığım mühasibat uçotu ixtisası üzrə fənn proqramları çox dəqiqliklə hazırlanıb və buna görə beynəlxalq institutlar tərəfindən akkreditisiya olunur. Bu istiqamətdə də Avstraliya təcrübəsinin ölkəmiz üçün əhəmiyyətli olacağına inanıram".

### "VAR-GÜCÜMLƏ ÇALIŞACAĞAM"

Nicat Azərbaycan gəncləri ilə avstraliyalı gənclər arasında fərqlərdən də danışdı. O deyir ki, avstraliyalı gənclərin həyatında idman önəmli yer tutur: "Burada idmanla məşğul olmayan gənc, demək olar, yoxdur. Gənclərin idmanla mütəmadi məşğul olması neqativ vərdişlərin həddən artıq az olması ilə nəticələnir. Lakin Azərbaycanda idmanla məşğul olanlar, demək olar ki, ancaq idmançılardır".

Sonda gələcək planları haqqında məlumat verən müsahibimiz vurğuladı ki, ölkəyə qayıtdıqdan sonra iqdisadiyyatımızın və təhsilimizin inkişafı üçün əlindən gələni edəcək: "Gələcək işlərim barəsində artıq planlarımı qururam. Belə ki, müəllimlərin məsləhətləri ilə tədqiqat istiqamətinin seçilməsini və doktorantura pilləsinə ilkin hazırlıq işlərini həyata keçirirəm. Mühasibat uçotu sahəsində doktorantura təhsilinin alınması gələcək planımın tərkib hissəsidir. Eyni zamanda, təhsil aldığım şəhərdə dünyanın məşhur mühasibat assosiasiyaları fəaliyyət göstərir və universitet ilə sıx əlaqələri mövcuddur. Bu imkandan istifadə edib beynəlxalq kvalifikasiyalara yiyələnmək məqsədlərimdən biridir. Doktorantura pilləsini tamamladıqdan sonra iqtisadiyyatımızın, təhsilimizin inkişafı üçün var-gücümlə çalışacağam".

**Aygün ƏZİZ**